# “MƏHKƏMƏ TƏBABƏTİ”

fənni üzrə fəlsəfə doktoru imtahanının

# PROQRAMI

hazırlıq istiqaməti:**32 “TİBB ELMLƏRİ”**

proqramın istiqaməti: **3203.01 “MƏHKƏMƏ TƏBABƏTİ”**

**Məhkəmə təbabəti fənni üzrə fəlsəfə doktoru imtahanının proqramı tibb elmləri doktoru, professor M.O.Bunyatovun ümumi elmi rəhbərliyi ilə aşağıdakı müəlliflər tərəfindən hazırlanmışdır**


| | |
|---|---|
| Azərbaycan Tibb Universitetinin<br>“Məhkəmə təbabəti” kafedrasının müdiri,<br>əməkdar müəllim, t.e.d., prof. | **Bunyatov Mənsur Oyandur oğlu** |
| Azərbaycan Tibb Universitetinin<br>“Məhkəmə təbabəti” kafedrasının<br>müdir müavini, t.ü.f.d, dosenti | **Məmmədov Zabit Məmməd oğlu** |
| Azərbaycan Tibb Universitetinin<br>“Məhkəmə təbabəti” kafedrasının<br>dosenti, t.ü.f.d. | **Xanməmmədova Aidə Atlıxan qızı** |

# MƏZMUNU

Ümumi qaydalar

Bölmə I. Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri

Bölmə II. Fəlsəfə doktoru imtahanının verilməsi prosesində yoxlanan bacarıqlar

Bölmə III. Fəlsəfə doktoru imtahanı proqramının məzmunu

Fəsil 1.Ümumi hissə

Fəsil 2.Mexaniki faktorların təsirindən, kəskin oksigen çatmamazlığından, fiziki faktorların təsirindən baş verən ölüm halları və sağlamlığın pozulması

Fəsil 3. Məhkəmə-tibbi toksikologiya

Fəsil 4.Məhkəmə-tibbi tanatologiya

Fəsil 5.Canlı şəxslərin məhkəmə-tibbi ekspertizası

Fəsil 6.Maddi sübutların məhkəmə-tibbi ekspertizası

Bölmə IV. Tədris-metodik və informasiya təminatı

Bölmə V.Qiymətləndirmə meyarları

Bölmə VI. Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi sualların siyahısı

## ÜMUMİ QAYDALAR

“Məhkəmə təbabəti” fənni 32–Tibb elmləri ixtisası, 3203.01 “Məhkəmə təbabəti” istiqaməti proqramı üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlığının variativ hissəsinə aid məcburi fəndir.

“Məhkəmə təbabəti” fənninin öyrənilməsi baza ali tibb təhsili hazırlığı üzrə əsas təhsil proqramının mənimsənilməsi prosesində doktorantların yiyələndiyi biliklərin məcmusuna əsaslanır. “Məhkəmə təbabəti” fənni üzrə fəlsəfə doktoru imtahanına daxil edilmiş sualların mənimsənilməsinin nəticələri doktorantların elmi-tədqiqat və peşəkar fəaliyyətləri üçün həlledici əhəmiyyətə malikdir.

“Məhkəmə təbabəti” fənni üzrə fəlsəfə doktoru imtahanı tədris planında və təqvim-tədris qrafikində müəyyən edilmiş müddətlərdə keçirilir.

“Məhkəmə təbabəti” fənni üzrə fəlsəfə doktoru imtahanı proqramında fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri, ona olan tələblər müəyyən edilmiş,fəlsəfə doktoru imtahanının məzmunu və qiymətləndirmə meyarları təsvir edilmişdir.

“Məhkəmə təbabəti” fənni geniş erudisiyalı, fundamental elmi bazaya malik olan, elmi yaradıcılığın metodologiyası və müasir informasiya texnologiyaları barədə məlumatlı, müstəqil elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyətlə məşğul olmağı bacaran və buna hazır olan şəxsiyyətin formalaşmasına imkan yaradır.

## I BÖLMƏ. ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

3203.01 “Məhkəmə təbabəti” elmi ixtisası üzrə doktoranturada təhsil alanların hazırlığının hədəfi təbabətin müasir problemlərinin həllində iştirak edən, insan orqanizminin norma və patologiyalar zamanı həyat fəaliyyətinin təhlilində elmi struktur və funksional yanaşmaya malik olan elmi və elmi-pedaqoji kadrların, o cümlədən yüksək ixtisaslı praktik mütəxəssislərin hazırlanmasından, doktorantın elmi ixtisas fənlərinin öyrənilməsinin yekunlarına əsasən onun bacarıqlarının səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın məzmunu və obyekti aşağıdakılardır:** hər hansı bir obyektə

dair (meyitlər, canlı şəxslər, maddi sübutlar, istintaq materialları) hüquq-mühafizə orqanları tərəfindən məhkəmə-tibbi ekspertiza təyin olunanda müvafiq normativ sənədlərə əsasən və uyğun müayinənin təşkili; fiziki, kimyəvi, bioloji və psixi faktorların təsir mexanizmini konkret hallarda araşdırmaq, onların zərərvurma dərəcəsini və ya ölümə səbəb olmasını təyin etmək; müasir klinik-laborator müayinələrdən, səhiyyənin aparıcı mütəxəssislərinin konsultativ imkanlarından səmərəli istifadə etmək.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** təhsil alanlar tərəfindən əsas ali təhsil proqramının - 32 - "Tibb elmləri" hazırlıq istiqaməti, 3203.01 "Məhkəmə təbabəti" istiqaməti üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlanması proqramının mənimsənilməsinin nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədləri:**

− elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanına hazırlıq və fəlsəfə doktoru imtahanının verilməsi prosesində 32 - "Tibb elmləri" hazırlıq istiqaməti üzrə Dövlət Ali Təhsıl Standartlarının tələbləri (ali ixtisaslı kadrların hazırlıq səviyyəsi) və təhsil alanların ali təhsil proqramının – doktoranturada elmi-pedaqoji kadrların hazırlanması proqramının mənimsənilməsi prosesində əldə etdikləri faktiki bilik, bacarıq və vərdişlər, o cümlədən praktik məhkəmə təbabəti üzrə ümumi və xüsusi bilikləri təyin etmək;

− doktorantın ümumi kateqoriyalarını, anlayışlarını və metodologiyasını, tibb elminin konseptual (fundamental) problemlərini, tədqiq edilən problemlərə əsas elmi yanaşmaları nə dərəcədə mənimsədiyini aşkar etmək;

− fəaliyyət istiqaməti üzrə elmi tədqiqatın vəzifələrini, onların təşkilinin əsas prinsiplərini və üsullarını bilmək, fundamental təbabət sahəsində əsas müasir istiqamətləri, bəşəriyyətin müasir problemlərinin həllində onların rolunu izah etmək;

− doktorantın tədqiqat metodlarını müstəqil öyrənmək, müasir elmi nailiyyətləri tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək, tədqiqat və

praktiki xarakterli məsələlərin həlli zamanı yeni ideyalar irəli sürmək, məhkəmə təbabətinin ümumi və xüsusi əsaslarını – patoloji proseslərin morfo- və patogenezini, onların fəsadlarını və nəticələrini, xüsusiyyətlərini mənimsəmək qabiliyyətini qiymətləndirmək.

## II BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı aşağıda sadalanan **bacarıqların** üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

− müasir elmi nailiyyətləri tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti;

**Ümumi peşəkar bacarıqlar**:

− müvafiq peşə sahəsində müasir tədqiqat metodlarından və informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata keçirmək qabiliyyəti.

**Peşəkar bacarıqlar:**

− məhkəmə təbabəti sahəsində nəzəri və eksperimental tədqiqatların metodologiyasının mənimsənilməsi;

− ölümün baş verməsini obyektiv üsullarla elmi əsaslandırmaq və təsdiq etmək;

− canlı şəxslərin müayinəsində sağlamlığa zərər vurmanın dərəcəsinin təyini;

− bioloji mənşəli maddi sübutların laborator müayinəsi;

**Fəlsəfə doktoru imtahanında doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:**

**biliklər:**

- ekspertizanın təyinini,keçirilməsini,sənədləşdirilməsini nizamlayan

normativ aktları və cinayət-prosessual qanunvericiliyi, məhkəmə-tibb ekspertinin hüquq və vəzifələrini, ilkin istintaq hərəkətlərini aparan zaman məhkəmə təbabəti sahəsində olan mütəxəssis haqqında müddəaları, məhkəmə-tibb ekspertiza idarələrinin struktur təşkilini;

- meyitlərin məhkəmə-tibbi müayinə qaydalarını, sağlamlığa zərər vurmanın məhkəmə-tibbi təyinini; zorakı ölüm və ona şübhə olan zaman məhkəmə-tibbi diaqnozun və nəticələrini tərtibi prinsiplərini;
- məhkəmə-tibbi tanatologiyanın əsas elmi məlumatlarını; məhkəmə tibbi travmatologiyanın, mexaniki xəsarətlərin və digər xarici faktorların təsirindən baş verən xəsarətlərin, zəhərlənmələrin, mexaniki asfiksiyaların ekspertizasının ümumi məsələlərini;
- bioloji xarakterli obyektlərin məhkəmə-tibbi müayinəsi zamanı laborator metodları, qan, sperma, tükün ekspertizasını, şəxsiyyətin identifikasiyasını;
- tibb işçilərinin peşə və peşə-vəzifə hüquq pozuntuları zamanı cinayət məsuliyyətinə cəlb olunmalarını.

**bacarıqlar:**

- hadisə yerinin müayinə protokolunun tərtibində müstəntiqə kömək göstərməyi (meyitin duruş vəziyyətini, paltarların təsvirini, cinsin və təxminən yaşının təyinini, meyit əlamətlərini, xəsarətlərin təsvirini);
- məhkəmə təbabətində qəbul olunmuş sxemə uyğun olaraq mexaniki xəsarətləri təsvir etməyi;
- bioloji xarakterli maddi sübutların axtarılıb, tapılıb, götürülməsində və qablaşdırılmasında, maddi sübutları müayinə edən ekspertlərin qarşısında qoyula bilən sualların tərtibində müstəntiqə kömək göstərməyi;
- laborator müayinələri (məhkəmə-kimyəvi, histoloji və s.) aparmaq üçün orqanları və ya onların hissələrini götürməyi, həmin müayinələrin aparılması üçün göndərişlərin doldurulmasını və «Ekspert rəyinin» («meyitin məhkəmə-tibbi müayinə aktı») və ya təsviri hissəsini tərtib etməyi;
- ölüm haqqında həkim şəhadətnaməsini doldurmağı;

- canlı şəxslərin məhkəmə-tibbi müayinəsini aparmağı, aşkar olunan xəsarətləri təsvir etməyi.

**vərdişlər:**

- hadisə yerinə baxış keçirən zaman ölümün baş verməsinin və müddətinin təyininə;
- meyitin məhkəmə-tibbi müayinəsinin texnikasına;
- meyitlərin məhkəmə-tibbiekspertizası zamanı diaqnozların tərtibinə və nəticələrin əsaslandırılmasına;
- sağlamlığa zərərvurmanın dərəcəsini təyin etməyə.

## III BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANI PROQRAMININ MƏZMUNU

## FƏSİL 1.ÜMUMİ HİSSƏ.

### 1.1. Məhkəmə təbabətinə giriş

Məhkəmə-təbabəti, onun məzmun və məqsədi. Məhkəmə təbabəti və məhkəmə-tibb ekspertizası. Məhkəmə təbabətinin digər elmlərlə əlaqəsi.

Ölkəmizdə əhaliyə müalicə-profilaktik köməyin yaxşılaşmasında məhkəmə təbabətinin və məhkəmə-tibb ekspertizasının əhəmiyyəti.

Məhkəmə təbabətinin qısa inkişaf tarixi. Məhkəmə təbabətinin yaranması. Azərbaycanda məhkəmə təbabətinin inkişafının əsas mərhələləri.

### 1.2. Məhkəmə-tibb ekspertizasının prosessual əsasları

Qanun haqqında anlayış. Qanun və hüquq. Hüququn əsas anlayışları və konstitusiya hüququ. İnsan və vətəndaşın konstitusiya hüququ statusu. Cinayət hüququnun əsasları. Mülki hüququn əsasları və növləri. Azərbaycan Respublikasının Konstitusiyası və əsas qanunları. Qanunvericilik hakimiyyəti. Məhkəmə hakimiyyəti. Cinayət və cinayət-prosessual, mülkü və mülkü-

prosessual məcəllələr. “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” 18 noyabr 1999-cu il tarixli Azərbaycan Respublikası Qanunu (05 mart 2004-cü il tarixli Qanunla edilmiş dəyişiklik və əlavələrlə). “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2000-ci il tarixli fərmanı.

Cinayət və günah. Cinayətin anlayışı və əlamətləri. Cəzanın anlayışı və əlamətləri. Sübutların anlayışı və növləri. Şəxsiyyət və sağlamlıq əleyhinə olan cinayətlər.

Ekspertiza haqqında anlayış. Ekspertiza rəyi sübut mənbəyi kimi. Eksperizanın növləri. Ekspertizanın təyin edilməsi, ekspertizanın aparılmasının zəruriliyi.

Məhkəmə-tibb ekspertizası, məhkəmə-tibb ekspertizasının obyektləri və müayinə üsulları. İlkin, əlavə, təkrari, komisiyon məhkəmə-tibb ekspertizası. Həkim-mütəxəssisin istintaq hərəkətində (hadisə yerinin və meyitin tapıldığı yerin müayinəsində, istintaq eksperimentində və s.) iştirakı.

Məhkəmə-tibb eksperti və həkim-ekspert. Ekspertin hüquq və vəzifələri, məsuliyyəti. Məhkəmə-tibb ekspertinin səlahiyyət həddi. Ekspertin rəddi. İlkin istintaqda və məhkəmə iclasında ekspertiza.

Məhkəmə-tibb ekspertizasının sənədləri: nomenklaturası, quruluşu, tərtib etmə, istintaq və məhkəmə orqanlarına verilmə qaydası.

### 1.3. Azərbaycan Respublikasında məhkəmə-tibbi ekspertizanın təşkili

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin “Məhkəmə-tibbi ekspertiza və Patoloji Anatomiya Birliyi” Publik Hüquqi Şəxsinin şöbələri, həmin şöbələrin vəzifəli şəxsləri və tabeçilik prinsipi.

Məhkəmə-tibb şöbələrinin və məhkəmə-tibb ekspertlərinin fəaliyyətini nizamlayan əsas sənədlər.

### 1.4. Tibb işçilərinin peşə və peşə-vəzifə hüquq pozuntuları haqqında işlər

**üzrə məhkəmə-tibbi ekspertizası**

Cəmiyyətdə həkimlə xəstə arasında qarşılıqlı əlaqələri tənzimləyən hüquqi və mənəvi etik normaları. Səhiyyə haqqında qanunverici əsaslarla nəzərdə tutulmuş tibb və əczaçı işçilərinin professional vəzifələri və hüquqları. Həkim etikası və deontologiyası.

Həkim andı. Deontoloji prinsiplərin tibb işçiləri tərəfindən pozulmasının nəticələri. Yatrogen xəstəliklər.

Tibb işçilərinin və əczaçıların peşə və peşə-vəzifə hüquq pozuntusu və buna görə cinayət qanunvericiliyi üzrə məsuliyyət daşıması (cinayət, ehtiyatsız hərəkətlər).

Tibbi praktikada həkim səhvəlri və bədbəxt hadisələr. Tibb işçilərinin jinayət məsuliyyəti işi üzrə ekspertizanın təşkili və aparılması. Bu işlər üzrə olan ekspert komissiyasının apardığı işlərin mahiyyəti. Verilmiş ekspertiza materiallarının əhaliyə tibbi-profilaktik köməyin yaxşılaşdırılması işində istifadə olunması.

Evtanaziya, süni mayalanma, embrionu implantasiya etmə və tibbi sterilizasiya.

## FƏSİL 2. MEXANİKİ FAKTORLARIN TƏSİRİNDƏN, KƏSKİN OKSİGEN ÇATMAMAZLIĞINDAN, FİZİKİ FAKTORLARIN TƏSİRİNDƏN BAŞ VERƏN ÖLÜM HALLARI VƏ SAĞLAMLIĞIN POZULMASI

### 2.1. Məhkəmə-tibbi travmatologiyanın ümumi məsələləri.

Bədən zədələrinin təyini anlayışı. Zədələrin əsas təsnifatı (zərbə yetirici alət, xarakter və ağırlıq dərəcəsinə görə). Zədələnmə və onun növləri. Zədələnmənin səbəbləri. Müxtəlif bədən zədələnmələrinin profilaktikasında məhkəmə-tibb ekspertizası materiallarının əhəmiyyəti.

Mexaniki xəsarətlər və onların morfoloji xarakteristikası: sıyrıqlar, qançırlar, yaralar, cızıqlar, sınıqlar, orqanların cırılması, bədən hissələrinin əzilməsi, ayrılması və dağılması.

Xəsarətlərin ağırlaşması. Uzunmüddətli sıxılma əlaməti. Əvvəlcədən olan xəstəliklərin zədələnmə nəticəsində ağırlaşması.

Məhkəmə təbabətində xəsarətlərin müayinə üsulları. Mexaniki xəsarətlərdə ekspertiza qarşısında qoyulan əsas suallar. Bədən xəsarətlərinin təsviri qaydası.

**2.2. Bərk, küt əşyalarla zədələnmələr.**

Küt alətlərin növləri. Küt alətin təsir mexanizmi və onların təsirindən yetirilmiş xəsarətlərin xarakteri. Bədən hissələrinin təsirindən yetirilmiş xəsarətlər (əllə, ayaqla, dişlərlə).

İnsanın əlində olan əşyanın təsirindən yetirilmiş xəsarətlər. Xəsarətlərin xüsusiyyətlərinə görə küt əşyaların növlərinin və təsir mexanizminin təyin edilməsinin mümkünlüyü.

Hündürlükdən yıxılma zamanı əmələ gələn xəsarətlər. Küt alətlərin təsirindən əmələ gəlmiş digər xəsarətlərdən onların fərqlənməsi.

**2.3.Nəqliyyat zədələnmələri.**

Müasir nəqliyyat zədələnmələrinin ümumi xüsusiyyəti. Nəqliyyat zədələnmələrinin növləri. Nəqliyyat hadisələrinin istintaqı zamanı məhkəmə-tibb ekspertizasının əhəmiyyəti.

Avtomobil zədələnməsi və onun növləri. Avtonəqliyyat zədələnməsinin əsas növlərində xəsarətlərin xüsusiyyəti və əmələ gəlmə mexanizmi. Yol-nəqliyyat hadisələrində hadisə yerinə baxışın xüsusiyyətləri və avtomobil zədələnmələrinin məhkəmə-tibb ekspertizası.

Motosiklet zədələnməsi. Traktorla zədələnmə. Dəmiryol zədələnməsi, onların növləri, xəsarətlərin xarakteri. Dəniz nəqliyyatında zədələnmə. Hava nəqliyyatı zədələnmələri və onun növləri. Hava nəqliyyat hadisəsinin səbəbinin

aydınlaşdırılmasında məhkəmə-tibb ekspertizasının əhəmiyyəti və ekspertizasının aparılma xüsusiyyətləri.

**2.4. İti alətlərlə zədələnmə.**

İti alətlərin klassifikasiyası və təyin edilməsi. Kəsici və deşici-kəsici, deşici, çapıcı və mişarlayıcı alətlərlə xəsarət yetirmənin təsir mexanizmi. Kəsilmiş, deşilmiş, deşilmiş-kəsilmiş, çapılmış və digər xəsarətlərin morfoloji xüsusiyyətləri. İti alətlərin və onların təsir mexanizminin xəsarətlərin xüsusiyyətlərinə görə inkar edilməsinin mümkünlüyü.

**2.5.Odlu silah zədələnmələri.**

Odlu silahlar və onun növləri. Döyüş sursatı. Atəşin mexanizmi. Atəşin zədəyetirici faktorları. Paltarda, toxumada və orqanlarda güllənin təsir mexanizmi.

Müxtəlif məsafədən atəş zamanı xəsarətlərin əlamətləri. Dirənmiş vəziyyətdə atəşin əlamətləri. Paltarda və bədəndə yaxın məsafədən atəşin izləri, onların əhəmiyyəti və müəyyənləşdirmə üsulları. Uzaq məsafədən güllə yaralanması. Dəlib keçən güllə yaralanmaları. Güllənin giriş və çıxış dəliyinin müəyyən edilməsi, bədəndə yara kanalının istiqamətinin təyini. Kor və toxunub keçən güllə yaralanmaları. Güllənin tapılması və onun əhəmiyyəti. Atəş məsafəsinin təyini.

Qırma (kartec) zədələnmələri. Boş patronla atəş zamanı zədələnmələr. Atipik, əldə düzəldilən və pnevmatik silahlarla zədələnmələr. Odlu silahla zədələnmələrinin miqdarının və yetirilmə ardıcıllığının təyini. Silahın növünün xəsarətlərin xarakterinə görə təyininin mümkünlüyü.

**2.6. Mexaniki asfiksiya.**

Hipoksiya və mexaniki asfiksiya haqqında anlayış. Mexaniki asfiksiyanın növləri. Mexaniki asfiksiyanın dövrlərinin ümumi xüsusiyyətləri,

meyitin müayinəsində müəyyən edilən əlamətlər. Stranqulyasion asfiksiyalar: asılma, ilgəklə boğmaq, əllə boğmaq. İlgəklər, onların növləri və boyunda duruş vəziyyətləri.

Boyunun ilgəklə sıxılması nəticəsində ölümün əmələ gəlməsi. Asılma və ilgəklə boğmaq nəticəsində əmələ gələn stranqulyasiya şırımı. Stranqulyasiya şırımının həyatiliyinin təyini. Əllə boğulmanın məhkəmə-tibbi diaqnostikası. Sıxılma nəticəsində əmələ gələn asfiksiya: qarın və döş qəfəsinin sıxılması. Qarnın və döş qəfəsinin sıxılması nəticəsində ölümün əmələ gəlməsi. Morfoloji əlamətləri. Obturasion asfiksiyalar: ağız və burun dəliklərinin, tənəffüs yollarının yad cisimlərlə, səpələnən maddələrlə, mədə möhtəviyyatı və qan kütləsi ilə qapanması.

Suda batma və onun növləri. Suda batmanın müəyyən edilməsi. Suda batmanın diaqnostikası zamanı laborator müayinə metodları. Batma ilə əlaqədar olmayaraq suda ölümün baş verməsi. Sudan çıxarılmış meyitlərdə olan zədələr. Meyitin suda qalma müddətinin təyini. Bağlı mühitdə, oksigenin çatışmaması zamanı əmələ gələn ölüm.

### 2.7. Yüksək və aşağı temperaturun təsirindən əmələ gələn zədələnmələr

Yüksək temperaturun yerli və ümumi təsiri. Yanıqlar. Yanıq xəstəliyi. Yanıqların nəticəsi. Yanıqların ekspertizası zamanı həll edilən suallar. Zədətörədici faktorun, yanıq sahəsinin və yanıqların dərəcəsinin təyini. Yanıq yerlərində tapılmış meyitin ekspertizası. Alovun təsirinin həyatiliyinin təyini. Meyitlərin yandırılması. Yüksək temperaturun orqanizmə ümumi təsiri. İstivurma və günvurma.

Aşağı temperaturun yerli və ümumi təsiri. Orqanizmin soyuması zamanı əmələ gələn ölüm və meyitdə tapılan əlamətlər. Meyitin donması.

### 2.8.Digər fiziki faktorların təsirindən əmələ gələn zədələnmələr.

Elektrikvurma. Elektrik cərəyanının orqanizmə təsir mexanizmi, şəraitin elektrikvurmanın son nəticəsinə təsiri. Elektrikvurmanın morfologiyası.

Elektrik nişanəsi, elektrik yanıqları, mexaniki zədələnmələr. Elektrikvurma nəticəsində ölümün əmələ gəlməsi. Elektrikvurma zamanı hadisə yerinə baxışın və məhkəmə-tibb ekspertiza aparılmasının xüsusiyyətləri. İldırımvurma.

Qaz mühitinin, yüksək və aşağı təzyiqin orqanizmə təsiri. Dekompressiya xəstəliyi. Barotravmalar. Qazların parsial təzyiqinin dəyişilməsi zamanı səhhətin pozulması və ölüm. İonlaşdırıcı şüaların orqanizmə təsiri. Şüa xəstəliyi. Meyitin müayinə xüsusiyyətləri.

## FƏSİL 3. MƏHKƏMƏ-TİBBİ TOKSİKOLOGİYA

Zəhərlər haqqında anlayış. Zəhərlərin məhkəmə-tibbi klassifikasiyası. Zəhərlənmələr və onların mənşəyi, zəhərlənmənin gedişinin zəhərin xassəsindən, yeridilmə qaydasından və orqanizmin fərdi xüsusiyyətindən asılılığı. Zəhərlərin orqanizmə yeridilmə yolları, orqan və toxumalarda onların funksiyası və zərərsizləşdirilməsi. Zəhərə uyğunlaşdırmaq. Zəhərlənmələrin gedişi. Narkomaniya və toksikomaniya. Zəhərlənməyə şübhə törədən vaxt hadisə yerinin müayinə xüsusiyyətləri. Zəhərlənmələrin ekspertizası zamanı meydana çıxan suallar. Zəhərlənmələrdə məhkəmə-tibbi ekspertizasının əsas etapları. Tibbi məlumatların və iş materialların analizi, meyitin və laborator müayinənin aparılması. Məhkəmə-kimyəvi, biokimyəvi, histoloji, botanik və s. müayinələrin aparılması və nəticələrin qiymətləndirilməsi üçün materialların götürülməsi.

Dəm qazı, mərgümüş, ağır metal duzları, qələvilərlə, turşularla və hemoqlobinin dəyişməsinə səbəb olan başqa zəhərlərlə ölümcül zəhərlənmələrin xarakteristikası; antifriz, dixloretan və başqa texniki məhlullarla, üzvü fosfor və başqa zəhərli kimyəvi və dərman maddələri ilə zəhərlənmələr.

Etil spirti və spirt tərkibli məhsullarla zəhərlənmələr. Etil spirtinin orqanizmə təsiri. Sərxoşluq və alkoqolizm. Alkohol zəhərlənmələri ilə baş verən ölümün məhkəmə-tibbi diaqnostikası. Zəhərlənmələrin diaqnostikasında orqan və toxumalarda, qanda və sidikdə alkoqolun miqdarının təyininin əhəmiyyəti. Metil spirti ilə zəhərlənmələr. Qıcıqlandırıcı təsirli zəhərləyici maddələrlə zəhərlənmələr.

Qida zəhərlənmələri. Qida zəhərlənmələri zamanı məhkəmə-tibb ekspertizasının aparılması.

## FƏSIL 4. MƏHKƏMƏ-TİBBİ TANATOLOGIYA

### 4.1. Ölüm və ölümün əlamətləri.

Ölüm faktının təyini, ölümün ilk əlamətləri və onların təyini. Ölümün həqiqi əlamətləri.

Meyitin orqan və toxumalarının transplantasiya üçün istifadə olunması. Reanimasiyanın və transplantasiyanın hüquqi, mənəvi-etik və tibbi aspektləri. Reanimasiya zamanı alına bilən xəsarətlərin məhkəmə-tibbi qiymətləndirilməsi. Ölümün səbəbi haqda anlayış. Ölümün səbəbi və genezi. Ölümün məhkəmə-tibbi klassifikasiyası. Zorakı və qeyri-zorakı ölüm. Zorakı ölümün növləri: qətl, intihar, bədbəxt hadisə. Zorakı ölümə şübhə törədən ölüm. Qəfləti ölüm.

### 4.2.Meyit əlamətləri.

Ölümündən sonra üzv və toxumalarda əmələ gələn dəyişikliklər və onların məhkəmə-tibbi əhəmiyyəti. Skelet əzələlərinin mexaniki və elektrik qıcığına qarşı reaksiyası. Başqa həyati sınıqlar və onların ölmünün vaxtının təyinində əhəmiyyəti. İlk meyit əlamətləri. Meyitin soyuması, meyitin termometriyası. Hissəvi quruma əlamətləri. Meyit ləkələri, dövrləri və onların inkişaf müddəti. Müayinə metodları. Meyit qacıması, mexanizmi və onun

inkişaf müddəti. Autoliz. İlk meyit əlamətlərinin ölümün baş vermə vaxtının və başqa ekspert məsələlərinin həlli üçün istifadə olunması. Gec əmələ gələn meyit əlamətləri, meyitin çürüməsi. Çürümə prosesinin gedişinə ətraf mühitin təsiri. Gec əmələ gələn meyit əlamətlərinin konservə olunmuş formaları: mumifikasiya, yağmumlaşma, torf aşılanma. Meyitin süni konservə edilmə üsulları. Meyitlərin janlılar, həşəratlar və bitkilər tərəfindən zədələnməsi və dağıdılması. Gec əmələ gələn meyit əlamətlərinin məhkəmə-tibbi əhəmiyyəti.

**4.3. Meyitin tapıldığı yerdə müayinəsi.**

Hadisə yerinə baxışın hüququ əsasları. Baxışın təşkili və onun iştirakçıları. Baxışın dövrləri: statik və dinamik. Həkim-mütəxəssisin hadisə yerində meyitin müayinəsində vəzifələri. Meyitə baxışın qaydası və metodikası. Bioloji mənşəli maddi sübutların tapılması, götürülüb qablaşdırılmasında müstəntiqə kömək göstərilməsi. Bəzi ölüm hadisələrində meyitin müayinə xüsusiyyətləri. Hadisə yerində meyitə baxışın sənədləşdirilməsi. Hadisə yerinə baxış zamanı ayrı-ayrı konkret hallarda zərərçəkmişə ilk tibbi yardımın göstərilməsi.

**4.4. Meyitin məhkəmə-tibbi ekspertizası (müayinəsi).**

Meyitin məhkəmə-tibbi ekspertizasının (müayinəsinin) səbəbləri. Meyitin məhkəmə-tibb müayinəsinin patoloji anatomik müayinədən fərqi. «Meyitlərin məhkəmə-tibbi müayinəsi qaydası». Müayinə texnikası. Meyitin məhkəmə-tibbi müayinəsinin sənədləşdirilməsi. Naməlum və parçalanmış meyitlərin müayinə xüsusiyyətləri. Skeletləşmiş meyitlərin və sümük qalıqlarının müayinə xüsusiyyətləri. Meyitin şəxsiyyətinin müəyyən edilmə metodları. Radioaktiv maddələr və döyüş zəhərləyici maddələri ilə zəhərlənməyə şübhə olduqda, meyitlərin müayinə xüsusiyyətləri. Meyitin təkrari müayinəsi. Ekshumasiya. Ekshumasiya olunmuş meyitin müayinəsi. Meyitlərin restavrasiyası. Zorakı ölümlərin əsas növlərində ekspertizanın qarşısında qoyulan suallar və onların həll olunması. Ölümün genezi və

səbəbinin müəyyən edilməsi. Müəyyən edilmiş xarici faktorlar və onların təsir şərtələri. Həyati xəsarətlərin ölümündən sonra əmələ gələn xəsarətlərdən fərqi. Ölümcül xəsarətlər zamanı hərəkətin mümkünlüyü. Müalicə müəssələrində ölmüş şəxslərin meyitlərinin məhkəmə-tibbi müayinəsi. Məhkəmə-tibbi diaqnozun və ekspert nəticələrinin tərtib edilməsi, qurulması prinsipləri. Klinik anatomik konferensiyalar.

Qəfləti ölümlər və onun səbəbləri. Qəfləti ölümlərin baş verməsinə səbəb olan şəraitlər. Müxtəlif yaşlarda qəfləti ölümlərin baş verməsinə səbəb olan ən çox rast gələn xəstəliklər, körpə uşaqlarda qəfləti ölümlər.

Ürək-qan damar sistemi xəstəlikləri zamanı baş verən qəfləti ölümlər. Ateroskleroz, hipertoniya xəstəlikləri və onların fəsadları zamanı qəfləti ölümlər. Ürəyin işemiya xəstəliyi. Tənəffüs orqanları, mədə-bağırsaq traktı və mərkəzi sinir sistemi xəstəliklərində baş verən qəfləti ölümlər. Yoluxucu xəstəliklərdən baş verən qəfləti ölümlər və onların sanitar-epidemioloji əhəmiyyəti. Xüsusi təhlükəli infeksiyadan ölümə şübhə olduqda meyitlərin yarılma xüsusiyyətləri.

Qəfləti ölümlərin məhkəmə-tibbi diaqnostikası. Laborator müayinə metodları. Əhaliyə müalicə profilaktik köməyin keyfiyyətinin yüksəldilməsində qəfləti ölümlərin məhkəmə-tibbi ekspertizasının əhəmiyyəti.

Kütləvi insan tələfatı ilə müşaiyət olunan terror aktları və digər ekstremal vəziyyətlərdə məhkəmə-tibbi ekspertizasının rolu.

### 4.5.Yenidoğulmuş uşaq meyitlərinin məhkəmə-tibbi ekspertizası.

Yenidoğulmuş uşaq meyitlərinin müayinəsi zamanı həll olunan əsas məsələlər: yenidoğulmuş olduğunu, vaxtında doğulmuş olduğunu, yetişkən olmasını, yaşama qabiliyyətinin olmasını, doğulduqdan sonra yaşama müddətinin müəyyənləşdirilməsi. Yenidoğulmuş uşaq meyitinin yarılma texnikasının xüsusiyyətləri. Dölün və yenidoğulmuşun doğuşa qədər, doğuş vaxtı, doğuşdan sonrakı zorakı olmayan ölümünün səbəbləri. Zorakı ölüm, onun səbəbləri. Uşaq öldürmə.

## FƏSIL 5. CANLI ŞƏXSLƏRIN MƏHKƏMƏ-TIBBI EKSPERTIZASI

### *5.1.* Zərərçəkmişlərin, ittiham olunanların və başqa şəxslərin mәhkәmә-tibbi ekspertizası.

Zərərçəkənin, müttəhimin və başqa şəxslərin məhkəmə-tibbi ekspertizasının şərtləri, onun təşkili və aparılması. Sağlamlığa zərər vurmanın məhkəmə-tibb ekspertizası. Sağlamlığa zərər vurmanın dərəcəsinin hüquqi klassifikasiyası. Ağır, az ağır və yüngül zərər vurmanın kriteriyaları. (Azərb. Respub. CM 126, 127, 128-ci maddələri). «Sağlamlığa zərər vurmanın məhkəmə-tibb ekspertizası qaydaları» (2001). Ekspertizanın aparılması metodikası. Ekspertiza tərəfindən həll olunan əsas məsələlər. Səhhətin vəziyyətinin, simulyasiyanın, aqravasiyanın, dissimulyasiyanın, süni xəstəliklərin, özünəxəsarət yetirmənin ekspertizası. Ekspertizanın bu növündə tibbi sənədlərin, istintaq materiallarının, maddi sübutların və yetirmə şəraitinin təyininin əhəmiyyəti. Zöhrəvi xəstəliklərdə və QİÇS xəstəliyində yoluxmaya görə ekspertiza. Yaşın ekspertizası.

### 5.2. Cinsi vəziyyət və cinsi toxunulmazlılığa qarşı edilən cinayətlər zamanı məhkəmə-tibbi ekspertiza.

Cinsi məsələlər üzrə ekspertizanın aparılma xüsusiyyətləri. «Mama-ginekoloji məhkəmə-tibbi ekspertizanın aparılma qaydası» və «Kişinin cinsi halının ekspertizasının aparılma qaydası». Mübahisəli cinsi hallar. Cinsin təyini. Cinsi yetginliyin və törəmə qabiliyyətinin təyin olunması. Qızlıq pərdəsinin pozulmasını və keçmiş cinsi əlaqənin, hamiləliyin, keçmiş doğuşların, abortun təyini ekspertizası. Kriminal abort.

Kriminal abortun aparılmasının əsas üsulları. Xəstəxanadan kənar abortla əlaqədar olaraq hadisə yerinin müayinəsinin xüsusiyyətləri və

əhəmiyəti. Kriminal aborta şübhə olduqda qadınların müayinə metodikası. Kriminal abort zamanı baş verən ölümün məhkəmə-tibbi diaqnostikası.

Cinsi toxunulmazlığa qarşı cinayət. Həddi-buluğa çatmamışlara qarşı əxlaqsız hərəkətlər və zorlama işləri üzrə aparılan ekspertiza. Uşaqbazlığa şübhə olduqda aparılan ekspertiza.

## FƏSİL 6. MADDİ SÜBUTLARIN MƏHKƏMƏ-TİBBİ EKSPERTİZASI.

Maddi sübutlar haqqında anlayış. Məhkəmə-tibbi və məhkəmə-kimyəvi müayinəyə məruz qalan maddi sübutlar. Maddi sübutların tapılması, götürülməsi, onların qablaşdırılması və müayinəyə göndərilməsi. Qan və qan izlərinin müayinəsi. Qan izlərinin formasına və əmələgəlmə mexanizminə görə klassifikasiyası. Qanın cins, növ və qrup spesifikliyinin müəyyən edilməsi prinsipləri.

Qanın ekspertizası zamanı həll olunan digər məsələlər. Mübahisəli atalıq, analıq və uşaq dəyişmə zamanı molekulyar-genetik ekspert tədqiqatı. Sperma, sperma ləkəsi, ağız suyu, tük və digər bioloji obyektlərin eksperizasının mümkünlüyü və prinsipləri. Bu ekspertizalar zamanı həll olunan məsələlər. Məhkəmə-tibbi sitoloji tədqiqat. Tibbi-kriminalistik tədqiqat.

## IV BÖLMƏ. TƏDRİS-METODİK VƏ İNFORMASİYA TƏMİNATI

**Əsas ədəbiyyat**


1. Bunyatov M.O. «Məhkəmə təbabəti», Bakı, 2010.
2. Musayev Ş.M. «Məhkəmə təbabəti», Bakı, 2006.
3. Yusifli R.M. «Məhkəmə təbabətinin əsasları», Bakı, 2001.


**Əlavə ədəbiyyat**


1. Bunyatov M.O., E.İ.Ələkbərov, Z.M.Məmmədov «Məhkəmə-tibbi terminlərin tədris-məlumat lüğəti», Bakı, 2014.

2. Bunyatov M.O., Mikayılov Ü.S. «Meyit müayinəsinin məhkəmə-tibbi aspektləri», dərs vəsaiti, Bakı, 2015.

3. Dəmirov A.H., İsmayılov Ş.N., Hüseynov Q.F., “Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları”, Bakı, 2010.
4. “Dövlət Məhkəmə ekspertizası fəaliyyəti haqqında” 18 noyabr 1999-cu il tarixli Azərbaycan Respublikası Qanunu (05.2004-cü il tarixli Qanunla edilmiş dəyişiklik və əlavələrlə).
5. Джуваляков Г.П., Сундуков Д.В. «Практикум по судебной медицине» Ростов на Дону. 2006.
6. Крюков В.Н. «Судебная медицина», Москва, 2012.
7. Пиголкин Ю.И. Судебная медицина. Учебник-Москва: ГЭОТАР-Медиа, 2007.
8. Пиголкин Ю.И., Попов В.Л., Дубровин И.А., «Судебная медицина». Учебник-Москва: 2011.
9. Попов В.Л., Практикум по судебной медицине. Санкт-Петербург, 2001.
10. Федорович В.Ю. Судебная экспертиза, учебное пособие, М.2008.
11. Di Maio V.J., Di Maio D.J. Forensic pathology. New York, USA, 2001.
12. Dolinak D., Matshes E., Lew E. Forensic pathology: principles and practice. London, UK, 2005.
13. John A.M., Gall and J.Jason Payne-James. Current Practece in forensic medicine. Oxford, UK. 2016.
14. Mammadov V.Q. Forensic medicine. Baku 2012

**İnternet mənbələri**

www.health.gov.az - Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi

www.amu.edu.az - Azərbaycan Tibb Universiteti

www.mia.gov.az - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi

https://genprosecutor.gov.az -Azərbaycan Respublikası Baş Prokurorluğu

www.justice.gov.az - Azərbaycan Respublikası Ədliyyə Nazirliyi

www.supremecourt.gov.az - Azərbaycan Respublikası Ali Məhkəməsi

www.pubmed.ncbi.nlm.nih.gov -ABŞ Milli Tibbi Kitabxanasının rəsmi saytı

www.forensicmedicine.com

www.forensicmedicine.com.au

Xəstəliklərin Beynəlxalq Təsnifatı

https://www.aafs.org – Amerika Məhkəmə elmləri akademiyası

https://ifma-web.org –Beynəlxalq Məhkəmə təbabəti Assosiasiyası

# V BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ MEYARLARI

**Metodik göstərişlər**

**Doktorantların** 32 – "Tibb elmləri" hazırlıq istiqaməti, 3203.01 "Məhkəmə təbabəti" ixtisas fənni üzrə ali ixtisaslı kadrların hazırlanması üçün fəlsəfə doktoru imtahanı proqramı üzrə attestasiyası şifahi imtahan şəklində aparılır. Doktorantın fəlsəfə doktoru imtahanına hazırlığı "Məhkəmə təbabəti" moduluna aid fənlər üzrə mühazirələr və praktik məşğələlər dövründə, həmçinin auditoriyadankənar saatlarda müstəqil iş çərçivəsində həyata keçirilir.

**Qiymətləndirmə meyarları.** İmtahan zamanı doktorant proqrama daxil edilmiş suallara ətraflı cavab verməlidir. İmtahan komissiya əlavə suallar da verə bilər. Cavab zamanı doktorant sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:

- məhkəmə təbabətinin məzmunu və tədqiqatların üsullarına aid biliklər; aid məhkəmə təbabətinə tədqiqatların metodoloji xarakteristikaları; məhkəmə təbabəti elminin nəzəri əsasları, tədqiqat məsələlərinin qoyuluşu üsulları, məhkəmə-tibbi ekspertiza apararkən müvafiq hüquqi sənədlərə əsaslanması;

Cavabın tamlığı təhsilin planlaşdırılan nəticələrinin qiymətləndirilməsi göstəricilərinə əsasən təyin edilir.

Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanını qəbul edən imtahan komissiyasının üzvləri (qapalı iclasda açıq səsvermə yolu ilə) **aşağıdakı meyarları rəhbər tutaraq** imtahan verən şəxsin hər bir suala cavabını biliklərin qiymətləndirilməsi üçün beş ballıq sistem əsasında **5("əla"), 4("yaxşı"), 3("kafi") və ya 2("qeyri-kafi")** kimi qiymətləndirirlər. Mübahisəli vəziyyət yaranan halda imtahan komissiyasının Sədri həlledici səsə malikdir.

| **Ballar** | **Qiymətləndirmənin meyarları** |
|---|---|
| **1** | **2** |
| **5 (əla)** | Doktorant anlayışlar aparatını dərindən mənimsədiyini nümayiş etdirərək əsas və əlavə sualların məzmununu tam açıqlayır. |

| | |
|---|---|
| | Doktorant elmi terminologiyadan düzgün istifadə edir; irəli sürülən tezisləri əsaslandırır; baxılan məsələ ilə bağlı elmi ədəbiyyatda qəbul edilmiş əsas fikirləri göstərir. Doktorant öz mövqeyini və ya baxış bucağını əsaslandırır, patoloji anatomiya sahəsində ən mühüm tədqiqat problemlərini göstərir.Doktorant həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla hərtərəfli tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. |
| **4 (yaxşı)** | Doktorant zəruri anlayışlar aparatını mənimsədiyini nümayiş etdirərək sualın məzmununu açıqlayır. Doktorantın əsas və əlavə suallara cavab verərkən arqumentasiyada çatışmazlıqları vardır, faktiki və ya terminoloji cəhətdən əhəmiyyətli olmayan qeyri-dəqiqliklərə yol verir; patoloji anatomiya sahəsində mümkün tədqiqat problemləri haqqında fikir ifadə edir.Doktorant dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla kifayət qədər tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. |
| **3 (kafi)** | Doktorant zəruri anlayışlar aparatını qismən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu əsasən açıqlayır. Doktorant qoyulan əsas və əlavə suallara qısa və natamam cavab verir, qoyulan problemləri lazımi dərinlikdə işıqlandırılmadan, yalnız baxılan məsələnin bəzi əsas xüsusiyyətlərini və əlamətlərini adlandırır və müəyyən edir.Doktorant əhəmiyyətli terminoloji səhvlərə yol verir; patoloji anatomiya sahəsində mümkün tədqiqat problemləri haqqında heç bir fikir ifadə etmir, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla yarımçıq tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. |
| **2 (qeyri-kafi)** | Doktorant sualın məzmununu kifayət qədər açıqlamır və anlayışlar aparatını mənimsədiyini nümayiş etdirə bilmir. Doktorant baxılan problemin terminologiyasını, elmi əsaslarını, əlamətlərini, xüsusiyyətlərini bilmir, bu məsələyə öz baxışlarını təqdim etmir. Doktorant həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla minimum tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. |

## VI BÖLMƏ.FƏLSƏFƏ DOKTORU İMTAHANINA HAZIRLAŞMAQ ÜÇÜN NÜMUNƏVİ SUALLARIN SİYAHISI

1. Məhkəmə təbabətinin məzmumu, məqsədi, məhkəmə-tibbi ekspertizanın müayinə obyektləri və tədqiqat üsulları.
2. Məhkəmə təbabətinin qısa inkişaf tarixi. Azərbaycanda məhkəmə təbabətinin inkişafının əsas mərhələləri.
3. Ekspertiza haqqında anlayış və ekspertizanın təyini.
4. Məhkəmə-tibb ekspertinin hüquq və vəzifələri və onun məhkəmə prosesində iştirakının əhəmiyyəti.
5. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi sistemində məhkəmə-tibb xidmətinin təşkili və quruluşu.
6. Məhkəmə-tibbi ekspertizanın sənədləşdirilməsi.
7. Tibb işçilərinin peşə sahəsində göstərdikləri qanunsuz hərəkətlərində cinayət məsuliyyəti.
8. Meyitlərin məhkəmə-tibbi müayinəsinin aparılma səbəbləri.
9. Ölümün məhkəmə-tibbi təsnifatı.İlk ölüm əlamətləri.
10. İlk və gec baş verən meyit əlamətləri.
11. Hadisə yerinin müayinəsi və müayinəsinin sənədləşdirilməsi.
12. Naməlum şəxslərin meyitlərinin müayinəsi. Meyitin identifikasiyası. Parçalanmış meyitlərin müayinə xüsusiyyətləri. Ekshumasiya.
13. Meyitin məhkəmə-tibbi ekspertiza rəyi.
14. Ölümün baş vermə müddətinin təyin edilməsi.
15. Yeni doğulmuş uşaq meyitlərinin məhkəmə-tibbi müayinə xüsusiyyətləri.
16. Uşağın yeni doğulmuş olmasının,vaxtında doğulmasının və yetkinliyinin təyini.
17. Uşağın diri və ya ölü doğulmasının təyini.
18. Ekshumasiya.
19. Qəfləti ölüm.

20. Canlı şəxslərin məhkəmə-tibbi müayinəsinin aparılma səbəbləri.
21. Sağlamlığa zərər vurma dərəcəsinin təsnifatı.
22. Sağlamlığa ağır, az ağır və yüngül zərər vurma.
23. Meyitdə və canlı şəxslərdə keçmiş abortun təyini.
24. Az yaşlıların əxlaqsızlaşdırılması.
25. Yaşın təyini.
26. Cinsin təyini.
27. Qızlıq pərdəsi və onun məhkəmə-tibbi müayinəsi.Zorlama hadisələrində aparılan məhkəmə-tibbi ekspertiza.
28. QİÇS və zöhrəvi xəstəliklərdə aparılan məhkəmə-tibbi ekspertiza.
29. Öz üzvünə zərər vurma.
30. Mexaniki xəsarətlərin əmələ gəlməsinin əsas xüsusiyyətləri.
31. Küt alət təsirindən əmələ gələn zədələr.
32. Zərbə və sıxılma nəticəsində yaranan qabırğa sınıqlarının xüsusiyyətləri.
33. İti alət təsirindən əmələ gələn zədələr.
34. Nəqliyyat travmaları.
35. Avtomobil travmaları zamanı yaranan xəsarətlərin xüsusiyyətləri.
36. Motosiklet travmaları.
37. Dəmiryol travmaları.
38. Traktor travmaları.
39. Aviasiya travmaları.
40. Su nəqliyyatı travmaları.
41. Hündürlükdən yıxılma zamanı aparılan məhkəmə-tibbi ekspertiza.
42. Səth üzərinə yıxılma zamanı aparılan məhkəmə-tibbi ekspertiza.
43. Pilləkənvari yıxılma zamanı aparılan məhkəmə-tibbi ekspertiza.
44. Çox hündür olmayan məsafədən yıxılma zamanı aparılan məhkəmə-tibbi ekspertiza.
45. Yüksək hündürlükdən yıxılma zamanı aparılan məhkəmə-tibbi ekspertiza.
46. Odlu silah yaralanmalarının növləri.
47. Kor güllə yarası.

48. Dəlib-keçən güllə yaralarının ekspertizası.
49. Atəşin əlavə faktorlarının təsiri.
50. Güllənin kinetik enerjisi.Güllənin dəlib-kəsici və hidrodinamik təsiri.
51. Dirənmiş vəziyyətdə atəş.
52. Yaxın məsafədən açılan atəş.Uzaq məsafədən açılan atəş.
53. Güllə yarası kanalı və onun əhəmiyyəti.
54. Qırma ilə yaralanmaların məhkəmə-tibbi xüsusiyyətləri.
55. Partlayış travmaları zamanı aparılan məhkəmə-tibbi ekspertiza.
56. İsti maye və alov yanıqları.
57. Aşağı hərarətin yerli təsiri.
58. Aşağı hərarətin ümumi təsiri.
59. İsti və günəş vurğusu.
60. Elektrik cərəyanı ilə zədələnmə.
61. Atmosfer təzyiqinin dəyişməsi nəticəsində əmələ gələn zədələnmələrin ekspertizası. Kesson xəstəliyi.
62. Radiasiyanın (şüalanmanın) təsiri zamanı aparılan məhkəmə-tibbi ekspertizanın xüsusiyyətləri.
63. Asfiksiya haqqında anlayış.
64. Mexaniki asfiksiyanın növləri və həyatı gedişi.
65. Asfiksiyanın xarici və daxili əlamətləri.
66. Asılma.İlgəklə boğma.
67. Asılma və ilgəklə boğmanın differensiasiyası.
68. Əl ilə boğma.
69. Doş və qarının sıxılmasından baş verən asfiksiya.
70. Ağız-burun dəliklərinin qapanmasından,tənəfüs yollarına qəsdən yeridilmiş və ya təsadüfi düşmüş yad cisimlərin təsiridən törənən asfiksiya.
71. Suda batma.
72. Meyitin suda qalma müddətinin təyini.
73. Zəhərlərin məhkəmə-tibbi təsnifatı.

74. Zəhərlərin təsir şərtləri.zəhərlənmiş şəxslərin meyitlərinin müayinə xüsusiyyətləri.
75. Turşularla zəhərlənmə.
76. Qələvilərlə zəhərlənmə.
77. Arsenlə zəhərlənmə.
78. Süleymani ilə zəhərlənmə.
79. Dəm qazı ilə zəhərlənmə.
80. Bertole duzu ilə zəhərlənmə.
81. Funksional zəhərlər.
82. Sianid turşusu və kalium sianid ilə zəhərlənmələr.
83. Etil spirti və onun surroqatları ilə zəhərlənmə.
84. Metil spirti ilə zəhərlənmə.
85. Yuxu gətirən zəhərlər.
86. Morfi ilə zəhərlənmə.
87. Tiryək preparatları ilə zəhərlənmə.
88. Kokainlə zəhərlənmə.
89. Atropinlə zəhərlənmə.
90. Strixininlə zəhərlənmə.
91. Göbələklərlə zəhərlənmə.
92. Qida zəhərlənmələri.
93. Maddi sübutların məhkəmə-tibbi müayinəsi.
94. Tüklərin müayinəsi.
95. Sperma ləkəsinin müayinəsi.
96. Qanın müayinəsi.
97. Ləkədə qanın olmasının təyini.
98. Qanın növünün təyini (Çistoviç-Ulenqut reaksiyası).
99. Məhkəmə-tibb təcrübəsində atalığın və analığın inkarı.
100. Molekulyar-genetik tədqiqat-genom daktiloskopiya.